# NEOLOGİZMLƏRİN XÜSUSİYYƏTLƏRİ

**Xurşud İsmayılova,**
*Azərbaycan Dövlət İqtisad Universitetinin müəllimi*
E-mail: xurshud.ismayilova@mail.ru

**Rəyçilər:** *dos.* B. İbadova
*dos.* A. Bəkirova

***Açar sözlər:** neologizm, nitq, ölçmə, məzmun, bacarıq*
***Ключевые слова:** неологизм, речь, измерения, содержание, умение*
***Key words:** neologism, speech, measurement, content, skill*

Azərbaycan ədəbi dilinin lüğət tərkibinin inkişafında ictimai-siyasi hadisələrin təsiri böyükdür. Belə ki, cəmiyyətin iqtisadi, siyasi, ictimai-mədəni həyatındakı inkişafla əlaqədar olaraq dilin leksik-terminoloji potensialının zənginləşməsinə real zəmin yaranır. Yeni sözlər daha çox texniki və ictimai-siyasi həyatla bağlıdır. Dilimizə daxil olan yeni sözlərə neologizmlər deyilir. *Neologizm* (yun.νέος λόγος- yeni söz) - linqvistikada dildə yeni yaranan sözlərə deyilir. Məsələn: Helikopter, monitorinq, android, robot, kompüter, birja və s. Neologizm sözü "Yeni bir şey tapmaq", "törətmək", "gətirmək" mənalarını bildirir. (2, 4) Dildə yeni yaranan sözləri öyrənən elmə "Neologiya" deyilir. Yeni sözlərin yaranması daha çox elm və texnikanın inkişafı ilə bağlıdır. Bu gün dilimizdə kifayət qədər yeni sözlər "planşet", "onlayn", "plazma televizor", "sosial şəbəkə", "selfi" (özünü çəkmə), "sensor" və s daxil olmuşdur.

Son dövrlərdə dilimizə əksər sözlərin ingilis dilindən keçdiyini qeyd edən alimlər bildirir ki, onların əksəriyyətinin azərbaycanca qarşılığı yaranıb. Yeni sözlər texniki sahədə, KİV-də hazırda geniş şəkildə işlənsə və mütəxəssislər tərəfindən qəbul olunsa da, onlar Azərbaycan dilinin yeni orfoqrafiya lüğətində, eləcə də digər izahlı lüğətlərdə verilməyib.

Dilin yeni sözlərlə zənginləşməsi və mövcud mənalarının dəyişilməsi ictimai həyatda və ictimai fikirdə yaranan yeni inkişafla əlaqədardır. Yəni dilin lüğət tərkibi tələbatla bağlı müxtəlif dəyişikliklərə məruz qalır. Zənginləşmə elə bir prosesdir ki, burada lüğət tərkibinin diaxron mənzərəsi açılır, tarixi-mədəni inkişafın dildə faktlaşma üsulları meydana çıxır. Ona görə də dilin lüğət tərkibinin zənginləşməsində əsas mənbə dilin daxili imkanlarıdır. K.M. Musayev yazır: «Türk dillərinin leksik tərkibinin zənginləşməsi məsələləri haqqında nəzəri tədqiqatlar lazımdır. Məlumdur ki, türk dilləri leksikasının zənginləşməsi həm daxili imkanlardan, materiallardan, vasitələrdən və yollardan istifadə yolu ilə sözdüzəltmə hesabına, həm də dünyanın başqa dillərindən sözalma hesabına olur. Sözdüzəltmə və onun müxtəlif yollarının (sintetik, analitik, fonetik, leksik) mahiyyətini aydınlaşdırma və alınmalara nəzəri və praktiki qiymət onları daha da dərindən öyrənmək üçün geniş imkanlar açır». (1, 14)

Dilin lüğət tərkibinə müxtəlif dövrlərdən başlayaraq daxil olan yeni sözlər həmişə neologizm olaraq qalmır. Bunlar zaman keçdikcə işlənmə məqamından, nə vaxt meydana çıxmasından, anlaşılma dərəcəsindən asılı olaraq get-gedə dəyişilir. Buna görə də yeni söz, təzə söz anlayışları nisbi və şərti götürülərək dövrlərlə əlaqədar olan hadisə kimi başa düşülür. Dilin lüğət tərkibinin passiv hissəsinə keçən bu və ya başqa bir söz təşəkkül tapdığı dövr üçün neologizm, özündən sonrakı dövr üçün isə neologizm kateqoriyasından çıxıb lüğət tərkibinin fəal hissəsinə keçərək işlək sözlərə çevrilə bilir. Məsələn, Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra ilk dövrlərdə kolxoz, traktor, komsomol, pioner, maqazin, muzey, vaqon, telefon, kino və s. kimi sözlər dilimiz üçün neologizm hesab edilirdi. Lakin hal-hazırda bunlar demək olar ki, neologizm deyildir. Çünki bu sözlər dilimizin lüğət tərkibinin fəal hissəsinə keçmişdir, orada özünə müəyyən mövqe tutaraq digər işlək sözlərdən fərqlənmir. Eyni zamanda bunlar danışıq prosesində ciddi üslubi rəngarəngliyə malik olan təzə söz kimi də təsəvvür edilmir. Bütün bu qeyd olunan xüsusiyyətlərə əsasən, demək olar ki, dildə yeni sözün





neologizm hesab edilməsinin əsas meyarı onun daxil olduğu dövrdəki işlək sözlərdən fərqlənməsi, təzəlik əlamətlərini saxlaması yenilik çalarlılığını əks etdirən üslubi keyfiyyətini mühafizə etməsidir.

Yeni sözlərin müəyyənləşdirilməsi istiqamətində aparılan işlər hazırda da davam etdirilir. Yeni sözlər arasında informasiya texnologiyaları sahəsinə aid olan sözlər çoxluq təşkil edir. Yeni sözlər "Veboman", "Verilənlər bazası", "Vestübel", "Vibrasiya ilə sıxlaşdırma", "Vibrasiya söndürən", "Vizual nəzarət", "Kidneppinq", "Kleym" və s-dir. Burada bu sözlərin hər birinin anlayışı bildirir. Yeni sözlərin bəziləri dilimizdə tamam başqa mənalarda işlədilir. Burada isə bu sözlər yeni anlayışda təqdim edilir. Məsələn, "veboman" sözü internet konfransları və çatların iştirakçısı, internet nəşrlərinin müəllifi mənalarında təqdim edilir".

Bu sözlər indiyədək nə Azərbaycan dilinin orfoqrafiya, nə də izahlı lüğətlərinə daxil edilməyib. Yeni sözlərin müəyyənləşdirilməsi başa çatdıqdan sonra onların gələcəkdə hazırlanacaq orfoqrafiya lüğətlərinə daxil edilməsi planlaşdırılır.

Yeni sözlərin bəzilərini mənaları ilə birgə təqdim edirəm:

Kempinq - 1) avtoturistlər üçün xüsusi yay düşərgəsi. 2) əsasən, şəhərlərarası yol üstündə yerləşən, gecələmək üçün şəraiti olan yığcam, birmərtəbəli taxta və ya daş ev, kiçik hotel.

Kibercinayətkarliq - kompüter sistemlərinin və şəbəkələrinin köməyi ilə, yaxud kompüter sistemlərinə və şəbəkələrinə qarşı həyata keçirilən istənilən cinayət əməlidir. Başqa sözlə, virtual mühitdə həyata keçirilən istənilən cinayət növünü "kibercinayət" adlandırmaq olar.

Kidneppinq - Uşaq oğurluğu. Ümumiyyətlə, adam oğurluğu da bu sözlə ifadə olunur.

Kleym - 1) alıcının ona satılmış malın keyfiyyətinin pis olduğuna görə satıcıya tələbi; 2) iddia, reklamasiya.

İsterika - nevroz qrupundan xəstəlik; tutmalar, əsəbi gülüş, göz yaşları ilə müşayiət olunan psixi pozğunluq.

İzobat - xəritədə dəniz dibinin bərabər dərinliklərində nöqtələri birləşdirən xətt. Kontinental şelfin xarici hüdudunun müəyyənləşdirilməsinin distansiya meyarının növmüxtəlifliyi kimi tətbiq edilir.

İzokvanta - müəyyən edilmiş həcmdə məhsul istehsalını mümkün edən müxtəlif xərc kombinasiyalarını bildirən xətt.

Java - elektron hesablama maşınında (EHM-də) mövcud proqramlaşdırma dillərindən biri. Yeni, müasir dillərdən hesab olunur. Əksər kompüterlərdə işləyir. Bu dildə yazılan proqramların ölçüsü xeyli kiçik, lakin sürət aşağıdır. Odur ki, bu dildə yazılan proqramlar daha çox internetdə və mobil telefonlarda geniş yayılıb.

Jim - çıxış vəziyyətindən ayaq üstə, uzanaraq, çömbəlməklə bədənin hər hansı bir hissəsinin köməyi olmadan ştanqı sinəyə və ya çiyinlərə düz qollarla yuxarı qaldırma.

Jülen - fransız mətbəxinə aid olan yemək növü: pendirin altında bişirilmiş göbələklər. Həmçinin jülen toyuq ətindən və dəniz məhsullarından hazırlanır.

Kalkulyasiya - istehsal edilən məhsulun və ya xidmətin maya dəyərinin hesablanması; bu məqsədlə tələb olunan bütün xərclərin pul ilə ifadəsi.

Kambio - borc məktubu, veksel.

Kambist - veksel əməliyyatları və sikkə ticarəti ilə məşğul olan şəxs.

Kante - Ağac şəkilli sintaktik təsvirdə tərəfləri birləşdirən xətlər.

Kardiocərrahiyyə - Ürək cərrahiyyəsi.

Neologizmlər istehsalatın, elmin, mədəniyyətin, inkişafı üçün əlaqədar olaraq yeni yaranmış anlayış, hadisə və keyfiyyətləri bildirmək üçün əmələ gəlir. Neologizmlərin yaranmasında elmin rolu xüsusilə böyükdür. Müxtəlif sahələrə dair zəngin neologizmlərin əmələ gəlməsi cəmiyyət üçün daha xarakterik olan hadisədir. Burada yaranan bütün yeniliklər, bütün ixtiralar isə söz vasitəsi ilə öz əksini

dildə tapır. Elə buna görə də, müasir dövrdə də Azərbaycan ədəbi dilinin lüğət tərkibinə müxtəlif sahələrə dair yüzlərlə neologizm daxil olmuşdur. Bu neologizmlər iki mənbədən birinci, öz dilimizin daxili imkanları əsasında (azadlıq, bərabərlik və s.) ikincisi, başqa dillərdən söz almaq əsasında (marşal, kapitan və s.) yaranmışdır.

Neologizmlərin əmələgəlmə mənbələri müxtəlif olduğu kimi, əmələgəlmə səbəb və məqsədləri də müxtəlifdir. Bunlardan bəziləri yeni anlayış və hadisələri adlandırmaq üçün yaranır, bəziləri isə üslubi məqsəd üçün əmələ gəlir. Buna görə də, neologizmlər iki yerə bölünür: ümumi neologizmlər, fərdi-üslubi neologizmlər.

Ümumi neologizmlər. Müəyyən tələbata müvafiq olaraq ümumxalq dilində meydana çıxan neologizmlər ümumi neologizmlər adlanır. Məsələn, kommunist, təyyarəçi, radio, televizor, bayraqdar, bayramqabağı, opera, respublika, elektrikləşmə və s. Dilimizin lüğət tərkibinə tarixən külli miqdarda bu qəbildən olan neologizmlər daxil olmuşdur. Fərdi-üslubi neologizmlər. Şair və yazıçıların, alim və mətbuat işçilərinin müəyyən məqsədlərlə əlaqədar yaratdıqları neologizmlər fərdi-üslubi neologizmlər adlanır. Bu qrup neologizmlər iki cür olur; birincisi, müstəqil neologizmlər, ikincisi, kontekst neologizmləri. Bu ikinci forma neologizmlər sırf bədii sənətkarlıqla bağlıdır. Şair və yazıçıların üslubunun söz yaradıcılığı cəhəti ilə bağlı olaraq yaranan sözlərin bəziləri ümumi neologizmlər sırasına daxil olur, bəziləri isə belə bir əlamət və keyfiyyət kəsb edə bilmir. Məsələn,

Qərbi sarmışdı dumanlar, sislər,
Acılar duydu içindən Azər.
Özləyib Şərqi, həmən çıxdı yola,
Bəlkə bir düşgünə yardımcı ola.

Bu misradakı özləmək şairin fərdi üslubu ilə bağlı sözdür. Ümumiləşmədiyi üçün ədəbi dilin fəal tərkibinə keçə bilməmişdir.

**Problemin aktuallığı.** Respublikada neologizmlərin xüsusiyyətlərinin tədris olunmasının dilin inkişafına verəcəyi səmərə sahəsində tədqiqat aparılmamış, sorğular keçirilməmiş, təhlil olunmamışdır. Bu sahədə araşdırılmaların aparılmasına ciddi ehtiyac vardır.

**Problemin yeniliyi.** Neologizmlərin xüsusiyyətlərinin tədrisə verə biləcəyi böyük səmərə barədə təsəvvür yaradılır.

**Problemin praktik əhəmiyyəti.** Araşdırma bu sahə üzrə iş aparan peşə sahiblərinə və mütəxəssislərə əməli kömək göstərəcəkdir.

## ƏDƏBİYYAT

1. К.М. Мусаев.Основные проблемы изучения лексики трюкских языков. СТ, 1978, № 3
2. В.В. Иванов. Терминология и заимствования в современном китайском языке. М., 1973

**Х. Исмаилова**

## ОСОБЕННОСТИ НЕОЛОГИЗМОВ
## РЕЗЮМЕ

В статье подчеркивается, что существующие исследования не отвечают требованиям современной лингвистики, так как в этих исследованиях отсутствует системный подход к семантике неологизмов.

**X. İsmayılova**

## FEATURES OF NEOLOGISMS
## SUMMARY

In the article is paid attention investigations of speech etiquettes don't respond the modern linguistics demands. There is no systematic approach to the semantics, structure and pragmatics of the neologisms.

**Redaksiyaya daxil olub: 20.06.2016**